


# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 186 (23.828)

8 oktyabr 2021-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika




Oktyabrın 7-də Bakı Zooloji Parkının yenidənqurmadan sonra açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva açılışda iştirak ediblər.

Bakı Zooloji Parkı IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə yenidən qurulub. IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə burada genişmiqyaslı yenidənqurma işləri aparılıb. Təxminən, 4 il davam edən əsaslı yenidənqurma işləri nəticəsində Bakı Zooloji Parkı ən müasir səviyyəyə çatdırılıb. Yenidənqurmadan sonra Zooloji Parkın kompleksi ziyarətçilər üçün rahat və maraqlı məkana çevrilib, ümumi ərazisi, demək olar ki, iki dəfə artırılaraq 4,25 hektara çatdırılıb. Yenidənqurma işləri zamanı ərazidə mövcud olan ağac və kolların tam qorunub saxlanmasına xüsusi diqqət yetirilib. Ümumiyyətlə, abadlaşdırılan və yaşıllıq sahəsi artırılan zooparkda daha təbii mühit yaradılıb. Digər yeniliklər və müxtəlif əyləncə obyektləri ilə yanaşı, ərazidə uşaq meydançası, lektoriya və elektron bələdçi sistemi var.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Türkiyə Silahlı Qüvvələrinin nümayəndə heyəti ilə görüşüb



Oktyabrın 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə Respublikası Silahlı Qüvvələrinin 3-cü Ordu Komandanı, general-polkovnik Yavuz Türkgəncinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Ali Məclisin Sədri qardaş Türkiyə Respublikası Silahlı Qüvvələrinin nümayəndə heyətini Azərbaycanın Naxçıvan Muxtar Respublikasında görməkdən məmnunluğunu bildirmişdir. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasında ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərdən bəhs edən Ali Məclisin Sədri "Sarsılmaz qardaşlıq – 2021" birgə döyüş atışlı taktiki təlimin uğurla başa çatması, eləcə də yeni vəzifəyə təyin olunması münasibətilə Yavuz Türkgənciyə və nümayəndə heyətinə təbriklərini çatdırmışdır. Ali Məclisin Sədri Azərbaycan-Türkiyə birgə təlimlərinin təcrübə mübadiləsi baxımından əhəmiyyətini vurğulamış, göstərilən dəstəyə görə Türkiyə dövlətinə və Silahlı Qüvvələrinə ehtiramını ifadə etmişdir.

Türkiyə Respublikasının 3-cü Ordu Komandanı, general-polkovnik Yavuz Türkgənci səmimi qəbula görə nümayəndə heyəti adından minnətdarlığını bildirmiş, ikitərəfli əlaqələrimizdə ordu quruculuğu sahəsində görülən işləri yüksək dəyərləndirmişdir. Yavuz Türkgənci bu istiqamətdə fəaliyyətin davam etdiriləcəyini və hər zaman Azərbaycanın yanında olacaqlarını bildirmişdir.

Sonda xatirə şəkli çəkdirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Yeni Azərbaycan Partiyasının gənc üzvləri ilə görüş keçirilib

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibliyi və Naxçıvan Müəllimlər İnstitutunun birgə təşkilatçılığı ilə Naxçıvan Müəllimlər İnstitutunda təhsil alan Yeni Azərbaycan Partiyasının gənc üzvləri ilə görüş təşkil olunub.***



Gənclərin Vətənə bağlılıq, dövlətçiliyə sədaqət hisslərinin yüksəldilməsi baxımından belə tədbirlərin müstəsna əhəmiyyətə malik olduğunu deyərək tədbirin açılışını edən institutun rektoru, dosent Azad Novruzov bildirib ki, hazırda ölkəmizdə və onun ayrılmaz tərkib hissəsi Naxçıvan Muxtar Respublikasında gənclər siyasəti uğurla davam etdirilir. Elm, təhsil, mədəniyyət, incəsənət, idman və digər sahələrin inkişafı istiqamətində atılan addımlar nəticəsində istedadlı gənc kadrlar formalaşıb. İnstitutumuz da bu cür diqqət və qayğıdan kənarda qalmayıb. Belə ki, maddi-texniki bazası, təhsil mühiti və bir çox meyarına görə Naxçıvan Müəllimlər İnstitutu son dövrlər qabaqcıl təhsil ocağı kimi öz mövqeyini daha da gücləndirib. Göstərilən diqqət və qayğı, yaradılan şərait onu deməyə əsas verir ki, gələcək istiqamətlər üzrə işlər uğurla davam etdiriləcək.

Gənclər və idman naziri Ramil Hacı çıxış edərək bildirib ki, ümummilli lider Heydər Əliyevin zəngin dövlətçilik fəaliyyətində gənclər siyasəti hər zaman xüsusi yer tutub. Bu siyasi xəttin uğurla davam etdirilməsi sayəsində ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması, milli adət-ənənələrə, saf dəyərlərə bağlılığı üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. Dahi şəxsiyyətin ordu quruculuğu siyasətinin uğurla davam etdirilməsi sayəsində dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə bu sahədə yetişdirilən təcrübəli zabit heyəti, vətənpərvər gənclər şanlı qələbədə böyük pay sahibi oldular. Nazir qeyd edib ki, muxtar respublikamızda da ümummilli liderin təməlini qoyduğu dövlət gənclər siyasəti uğurla davam etdirilir. Gənclərin sağlam, vətənpərvərlik ruhunda böyüməsi, yüksək səviyyədə təhsil alması, cəmiyyətin müxtəlif sahələrində fəal iştirakının təmin edilməsi üçün ardıcıl tədbirlər həyata keçirilir.

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi Anar İbrahimov çıxış edərək bildirib ki, 90-cı illərdə müstəqilliyimizin böyük təhlükə ilə üz-üzə qalmağına baxmayaraq, ulu öndər Heydər Əliyevin ali xilaskarlıq missiyası ölkəni mürəkkəb vəziyyətdən çıxardı. Ölkəmizdə yeni siyasi era – inkişaf yolunun əsası qoyuldu. Ümummilli lider gənc milli kadrların hazırlanması işinə xüsusi önəm verərək onları vahid Azərbaycançılıq ideologiyası ətrafında birləşdirdi. Həmin gənclərin savadlı və istedadlı fərd kimi formalaşması üçün müxtəlif nüfuzlu elm ocaqlarında təhsil almaları, önəmli mövqelərdə dövlətə, xalqa xidmət etmələrinə bilavasitə kömək oldu.

Diqqətə çatdırılıb ki, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı üzvlərinin 41 faizə yaxını gənclərdən ibarətdir. Dövlətçilik prinsiplərinə sadiqlik nümayiş etdirən gənc partiya üzvləri ölkənin inkişafı yolunda əzmlə çalışır, onlara bəslənilən ümidləri doğruldaraq müxtəlif sahələrdə uğurlu işlər icra edirlər.

Gənc partiya üzvləri adından Naxçıvan Müəllimlər İnstitutunun tələbəsi Bəhriyyə Əhmədova gənclərə yaradılan şərait və karyera istiqamətləri barədə danışıb. Sonra İnstitutun Yeni Azərbaycan Partiyası sıralarına yeni qoşulan tələbələrinə üzvlük vəsiqələri və ali təhsil müəssisəsinin ictimai işlərində fərqlənən gənclərə nazirliyin diplom və qiymətli hədiyyələri təqdim olunub. Tədbir Naxçıvan Müəllimlər İnstitutu tələbələrinin hazırladığı vətənpərvərlik mövzusunda mahnı və şeirlərdən ibarət bədii hissə ilə davam edib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

*Muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunmasında yaşayış məntəqələrinin və istehsalat sahələrinin təbii qazla təminatını həyata keçirmək üçün Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətində təsdiq olunmuş iş planına əsasən ardıcıl tədbirlər görülür.*

## Əhalinin təbii qazla təminatı diqqətdə saxlanılır



Muxtar respublikanın şəhər və rayon ərazilərindən daxil olan müraciətlərə əsasən sentyabr ayı ərzində 113 mənzil (ev) və müxtəlif təyinatlı obyektlər qazlaşdırılıb. Bunun 109-u əhali, 4-ü isə qeyri-əhali abonentdir.

Hesabat dövründə Qaz İstismar Xidmətinə tabe şəhər, rayon qaz istismarı idarələrinin qəza-dispetçer sahələrinə 104 nömrəli 24 saat aktiv olan qaynar xəttinə təbii qaz istehlakçılarından qazsızması, qaztənzimləyicilərin nizamlanması, elektron sayğacların kilidə düşməsi və qəza-bərpa işlərinə görə, ümumilikdə, 943 çağırış daxil olub. Ötən ay muxtar respublika qaz şəbəkəsində 707 qazsızması aşkarlanıb, texniki istismar və texniki təhlükəsizlik qaydalarının tələblərinə müvafiq olaraq sızmalar aradan qaldırılıb.

Naxçıvan Regional Peşə Tədris Mərkəzində təşkil olunan Qaz avadanlıqlarının istismarı və təmiri üzrə qazpaylayıcı stansiyalarının operator peşəsi üzrə ixtisasartırma kursunu bitirən müdavimlərə sertifikatlar verilib. Tədris davam etdirilir.

Ötən ay yeni qaz boru xətlərinin quraşdırılması, yenidənqurma, abadlıq işlərinin görülməsi zamanı qaz boru xətlərinin yerinin dəyişdirilməsi, yaşayış binalarında təmir-tikinti, korroziyaya uğramış yeraltı yol, qapı keçidlərinin yerüstü keçidlərlə əvəz edilməsi işlərinin görülməsi ilə əlaqədar olaraq müxtəlif diametrli polietilen və dəmir borulardan istifadə edilib.

Muxtar respublikada yerli qaz istismarı idarələrinin işçiləri tərəfindən qaz cihazlarından təhlükəsiz istifadə qaydaları haqqında abonentlər arasında maarifləndirmə və izahat işi aparılıb.

***Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidməti***

## “Naxçıvan” Universitetində də Robotexnika və STEAM kabinəsi yaradılıb

*“Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə muxtar respublikada təhsilin inkişafı istiqamətində mühüm işlər görülmüş, müasir standartlara cavab verən təhsil müəssisələri tikilmiş, həmin müəssisələrin maddi tədris bazası möhkəmləndirilmiş, infrastrukturu yenilənmişdir. Məhz “Naxçıvan” Universiteti də bu diqqət və qayğıdan öz payını almışdır”.*



Bu fikirləri “Naxçıvan” Universitetinin rektoru, dosent Nurlana Əliyeva universitetdə yaradılan Robotexnika və STEAM kabinəsinin açılış tədbirində səsləndirib. Bildirilib ki, yeniyetmə və gənclərin dövrün tələblərinə uyğun təhsil alması və müasir texnologiyanı tam mənimsəməsi məqsədilə yeni təhsil metodları da hazırlanır. Bunlardan biri də dünyanın inkişaf etmiş ölkələrində tətbiq olunan və dünya təhsil sistemində əsaslı yer tutan STEAM təhsil metodudur. STEAM haqqında ətraflı məlumat verən rektor vurğulayıb ki, müasir təhsildə mütəxəssis hazırlığının əsas istiqamət kimi götürüldüyü STEAM metodlarının Naxçıvan şəhərində tətbiqinə 2020-ci ildən başlanılıb. 2020-2021-ci tədris ilindən etibarən isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə muxtar respublikanın ümumtəhsil məktəblərində STEAM təhsil metodunun tətbiqinə start verilib. Bu məqsədlə STEAM kabinələri yaradılıb, müəllimlər STEAM təlimlərinə cəlb olunub. Təlimlərin yüksək səviyyədə təşkilini təmin etmək məqsədilə “Naxçıvan” Universitetində də Robotexnika və STEAM kabinəsi yaradılıb.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov çıxış edərək bildirib ki, təhsildə tətbiq olunan ən mühüm yeniliklərdən biri də STEAM təhsil metodunun tətbiqidir. Məhz bu amili nəzərə alan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2021-ci il 7 iyun tarixdə “Naxçıvan Muxtar Respublikasında STEAM təhsil metodunun tətbiqi ilə bağlı tədbirlər haqqında” Sərəncam imzalamışdır. Sərəncama uyğun olaraq Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində STEAM Təlim-Tədris Mərkəzi yaradılacaq, məktəblərdə STEAM kabinələrinin yaradılması istiqamətində işlər davam etdiriləcək, hər il “STEAM təhsil festivalı” keçiriləcəkdir. Hazırda bu istiqamətdə işlər görülməkdədir.

Təhsil naziri pedaqoji fəaliyyətlə məşğul olan müəllimlərlə yanaşı, sabahın müəllimlərinin də ali təhsil pilləsində kurikulum vasitəsilə STEAM mövzularına yaxşı yiyələnmələrinin zəruriliyindən bəhs edərək vurğulayıb ki, məhz bu baxımdan “Naxçıvan” Universitetində STEAM təhsil metodu üçün hər cür imkanlara malik Robotexnika və STEAM kabinəsinin yaradılması pedaqoji profilli ixtisaslarda təhsil alan tələbələrin məktəblərdə tətbiq olunan STEAM təlim metoduna əvvəlcədən yiyələnmələrinə mühüm töhfələr verəcəkdir. İnanırıq ki, yaradılan imkanlardan istifadə edən STEAM bilikli tələbələrimiz gələcəkdə ixtisasını yaxşı bilən müəllim olmaqla yanaşı, STEAM sahəsində bacarıqları ilə təhsilimizin inkişafına təkan verəcəklər. Onlar ölkəmizi texnologiya idxalçısından onun ixracatçısına çevirməyə qadir kadrlar olacaqlar.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən “Naxçıvan” Universitetinə STEAM dərslərinin tədrisi üçün 1 ədəd xətt izləyən robot, 1 ədəd elektron dövriyyə dəsti, 1 ədəd arduino, 5 ədəd 3D çap materialı, metodik vəsaitlər, dərslik və proqramlar hədiyyə edilib.

Universitetin elektron texnika üzrə nəzarətçi vəzifəsində çalışan Şamil Hümbətov təqdim olunan STEAM avadanlıqları barədə məlumat verib.

Sonda tələbələr tərəfindən hazırlanmış STEAM layihələrinin təqdimatı olub.

***“Naxçıvan” Universitetinin mətbuat xidməti***

## Yazıçılar Birliyində “Şərq qapısı” qəzetinin 100 illik yubileyi qeyd edilib

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə” 2021-ci il 1 iyun tarixli Sərəncamı ilə təsdiq olunan Tədbirlər planına əsasən oktyabrın 7-də Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyində muxtar respublikanın aparıcı mətbuat orqanının yubiley tədbiri keçirilib.***





Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, yazıçı-publisist, şair, dramaturq, Əməkdar mədəniyyət işçisi Asim Yadigar açaraq “Şərq qapısı” qəzeti və Naxçıvan ədəbi mühitindən bəhs edib. Bildirib ki, yarandığı ilk gündən “Şərq qapısı” qəzeti Naxçıvanda ədəbi mühitin formalaşmasına çox güclü təsir göstərib. Əgər 100 il bundan əvvəl bu qəzet yaranmasaydı, biz bu gün Naxçıvan ədəbi mühiti ilə, bəlkə də, “Əncüməni-şüəra” ədəbi məclisi haqqındakı təsəvvürə malik olduğumuz səviyyədə biliyə sahib ola bilərdik. Ötən əsrin 20-30-cu illərindən başlayaraq İkinci Dünya müharibəsi, müharibədən sonrakı və müstəqillik illəri dövrlərində ədəbiyyat aləminə qədəm qoyan şairlər, yazıçılar, alimlər həmişə bu qəzet vasitəsilə oxucuların görüşünə gəlib.

Yazıçılar Birliyinin fəaliyyətindən və mətbuatla əməkdaşlıq əlaqələrindən bəhs edən birliyin sədri diqqətə çatdırıb ki, muxtar respublikamızda yaşayıb-yaradan şair və yazıçılarımıza, onların ədəbi irsinin nəşri və təbliğinə dövlətimiz tərəfindən hər zaman yüksək diqqət və qayğı göstərilib, onların əməyi yüksək qiymətləndirilib.

Çıxışda son dövrlərdə “Şərq qapısı” qəzetində dərc olunmuş poetik nümunələr, yeni ədəbi əsərlərlə bağlı ədəbi-tənqidi məqalə və resenziyalar, əsərlərlə bağlı da geniş məlumat verilib.

Asim Yadigar “Şərq qapısı” qəzetinin əməkdaşlarını 100 illik yubiley münasibətilə təbrik edib, onlara yeni yaradıcılıq uğurları arzulayıb.

“Şərq qapısı” qəzetinin baş redaktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Mehriban Sultanova çıxış edərək bildirib ki, ilkin nəşri tarixində Mirzə İbrahimov, Əli Vəliyev kimi tanınmış ədəbi simaların müstəsna rolu olan “Şərq qapısı” qəzeti muxtar respublikada ədəbi mühitin formalaşması və inkişafında mühüm rol oynamış, Hüseyn İbrahimov, Hüseyn Razi, İslam Səfərli, Müzəffər Nəsirli, Möhsün Möhsünov, Elman Həbib, Muxtar Qasımzadə, Asim Yadigar, Həmid Arzulu, Xanəli Kərimli, Vaqif Məmmədov, Həsənəli Eyvazlı, Elxan Yurdoğlu, Qafar Qərib və digər tanınmış şair və yazıçılarımızın yaradıcılıq yolu məhz bu mətbuat orqanından keçmişdir.

Vurğulanıb ki, “Şərq qapısı” qəzeti bu gün də ədəbiyyatımızın təbliği funksiyasını yerinə yetirməyə, gənc ədəbi qüvvələri ictimaiyyətə tanıtmağa səy göstərir. Qəzet redaksiyasında istər jurnalist peşəkarlığı, istərsə poliqrafik keyfiyyət baxımından müasir tələblərə cavab verəcək, dünya qəzetçilik arenasına çıxa bilən qəzetin nəşri üçün müasir iş şəraiti yaradılıb. Muxtar respublikada jurnalistika sahəsində kadr potensialının formalaşdırılmasına göstərilən diqqət və qayğının nəticəsidir ki, bu gün “Şərq qapısı”nda təcrübəli jurnalist həmkarlarımızla yanaşı, gənc əməkdaşlar da çalışır. 2012-ci ildən etibarən *www.serqqapisi.az* saytı vasitəsilə qəzet dünyanın Naxçıvanla bağlı informasiya tələbatını ödəməyə başlayıb, qəzetin elektron arxiv bazası yaradılıb. Sayt 2019-cu ildə yenilənib. 2005-ci ildə Naxçıvan Mətbuat Şurası, eləcə də Ali Məclis Sədrinin 2021-ci il 21 yanvar tarixli Fərmanı ilə Ali Məclisin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında “Naxçıvan Muxtar Respublikasının Medianın İnkişafı Agentliyi” publik hüquqi şəxs yaradılıb. Bütün bunlar muxtar respublikada uğurlu mətbu siyasətin təcəssümüdür.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə” 2021-ci il 1 iyun tarixli Sərəncamı bu mətbu orqanın muxtar respublikamızın ictimai-siyasi, sosial həyatındakı Azərbaycan ictimai-siyasi fikir tarixindəki yerini bir daha təsdiq etməklə, bütövlükdə, muxtar respublikada kütləvi informasiya vasitələrinin inkişafına dövlət qayğısı, milli mətbuatın cəmiyyətdəki, dövlətçilik tariximizdəki mühüm roluna verilən siyasi qiymətdir.

Baş redaktor göstərilən yüksək diqqət və qayğıya görə qəzetin kollektivi adından Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov “Şərq qapısı” qəzetinin muxtar respublika mətbuatının inkişafında rolu” mövzusunda çıxış edərək bildirib ki, müstəqillik illərində muxtar respublikada digər sahələr kimi, mətbuat da yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Ali Məclis Sədrinin “Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında” 2000-ci il 29 mart tarixli Sərəncamından sonra bu istiqamətdə mühüm tədbirlər həyata keçirilmişdir. Milli mətbuatımızın 135 illik yubileyində – 2010-cu il iyulun 22-də “Şərq qapısı” qəzeti redaksiyası və “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni redaksiya-nəşriyyat kompleksinin istifadəyə verilməsindən sonra qəzetin rəngli nəşrinə başlanılmışdır. Muxtar respublikada mətbuatın inkişafı ilə paralel olaraq yüksək nəşriyyat-poliqrafiya mədəniyyəti də formalaşmışdır.

Rövşən Hüseynov qeyd edib ki, “Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə imzalanan tarixi Sərəncam Naxçıvanın 100 illik tarixinin, mədəniyyətinin, elminin yetirdiyi jurnalistlər nəslinin əməyinə verilən böyük qiymətdir. Məhz həmin jurnalistlər nəslinin davamçılarıdır ki, dövlət qayğısından bəhrələnərək muxtar respublikamızın sosial-iqtisadi inkişafında və çiçəklənməsində, vətəndaşların informasiyaya olan tələbatının daha dolğun səviyyədə ödənilməsində, milli dəyərlərin təbliğində, siyasi mədəniyyətin formalaşmasında, Naxçıvanın bir turizm məkanı kimi tanıdılmasında, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında fəal iştirak edirlər.

Tədbirdə “Şərq qapısı” qəzetinin məsul katibi Muxtar Məmmədov, filologiya üzrə fəlsəfə doktoru Elxan Məmmədov, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Hüseyn Əsgərov “Şərq qapısı” qəzeti ilə bağlı xatirələrindən, milli mətbuatımızın inkişafında, tariximizin mətbuat vasitəsilə işıqlandırılmasındakı müstəsna rolundan və digər məsələlərdən danışıblar. Yubiley tədbirində çıxış edən gənc şairə Sabrina Gültəkin gənclərin intellektual inkişafının əhəmiyyətindən, istedadlı gənclərə göstərilən dövlət qayğısından bəhs edib, şeirlərini oxuyub.

Sonda “Şərq qapısı” qəzeti ilə yaxından əməkdaşlıq edən Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigara və digər qələm sahiblərinə hədiyyələr təqdim olunub.

**✍ Aytac CƏFƏRLİ**

## Ailə təsərrüfatçıları hərbçilərimizə sovqat aparıb

Dövlət dəstəyindən bəhrələnən, onlara yaradılan şəraitdən səmərəli istifadə edərək meyvə bağları salan muxtar respublikanın Culfa rayonunun ailə təsərrüfatçıları bağlarından topladıqları 1 ton 200 kiloqramdan çox almanı sovqat kimi hərbi hissəyə veriblər.



Bununla əlaqədar Culfa Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən görüşdə dövlət-xalq-ordu birliyindən bəhs olunub. Bildirilib ki, əsgərlərlə həmrəylik nümayiş etdirilməsi, onlara sovqatların aparılması xalqımızın öz ordusuna olan sevgi və ehtiramının daha bir ifadəsidir.

Qeyd edək ki, muxtar respublikada sakinlərin, dövlət qurumlarının, müəssisə və təşkilatların, ayrı-ayrı sahibkarlıq subyektlərinin hərbi hissələrə gələrək hərbçilərimizlə görüşməsi, onlara sovqat göndərməsi bir ənənə halını alıb.

**Xəbərlər şöbəsi**

## Əhalinin sağlamlığı diqqətdə saxlanılır

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində fəaliyyətini sentyabr ayında da davam etdirib, yoluxucu xəstəliklərin profilaktikası, ilkin səhiyyə xidmətinin yeni tələblərə uyğunlaşdırılması diqqətdə saxlanılıb.***

Ötən ay Azərbaycan Respublikası Səhiyyə Nazirliyi İnnovasiya və Təchizat Mərkəzindən dializ olunan xroniki böyrək çatışmazlığı olan xəstələr üçün dializ materialları və dərman preparatları, Azərbaycan Respublikası Milli Onkologiya Mərkəzindən Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzinə kimyəvi terapiya aparmaq üçün dərman preparatları, COVID-19 virusuna qarşı 50 min doza vaksin gətirilib.

Tibb işçilərinin peşə bacarıqlarının yüksəldilməsi istiqamətində tədbirlər davam etdirilib, 1 həkim, 1 rezident və 2 orta tibb işçisi Naxçıvan şəhər tibb müəssisələrinə təcrübə keçməsi üçün göndərilib, 23 məktəb tibb bacısı Mərkəzi Uşaq Xəstəxanasında nəzəri və praktik kurs keçib. Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin 29 və Tibb Kollecinin 19 tələbəsi tibb müəssisələrinə hamiliyə verilib.

Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzində “Yoluxucu xəstəliklər” və “Atipik pnevmoniya” mövzularında seminar keçirilib. Naxçıvan Muxtar Respublika Xəstəxanasının əməliyyat blokundan endoskopik xolesistoektomiya əməliyyatının gedişatı kompüter Tədris Mərkəzində Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin tələbələrinə videoformatda göstərilib, endoskopik əməliyyatlar haqqında konfrans təşkil olunub.

Ötən ay həkim və tibb işçiləri rayon mərkəzlərinin, qəsəbə və kəndlərin, eləcə də ucqar sərhəd və dağ yaşayış məntəqələrinin səhiyyə müəssisələrində yaradılan imkanlar hesabına əhalinin tibbi müayinəsini uğurla davam etdiriblər. Naxçıvan Diaqnostika Müalicə Mərkəzinin həkim briqadası Şərur rayon Aralıq Kənd Sahə Xəstəxanasında 35 nəfəri hərtərəfli tibbi müayinədən keçirib, 6 nəfərdə EKQ, 15 nəfərdə USM müayinəsi aparılıb. Naxçıvan Muxtar Respublika Xəstəxanasının göz həkimləri ayrı-ayrı rayonlarda şəkərli diabet xəstəliyindən əziyyət çəkən 123 xəstənin göz dibinin müayinəsini aparıb, lazımi məsləhət və təyinatlar verilib. Respublika Xəstəxanasının həkim briqadası Məhəmməd Füzuli adına Ordubad rayon tam orta internat məktəbində 39 şagirdi ambulator müayinə edib, ehtiyacı olanlar EKQ və laborator müayinələrdən keçirilib. Həmçinin Respublika Xəstəxanasında Bakı şəhərindən dəvət olunmuş LOR həkimi tərəfindən 5 nəfərdə müayinə və 5 nəfərdə cərrahi müdaxilə aparılıb. Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzin həkimləri tərəfindən Naxçıvan şəhər 1 nömrəli tam orta məktəbin təhsil işçilərindən 56 qadında süd vəzin profilaktik müayinəsi həyata keçirilib, 4 nəfərdə patologiya aşkar olunaraq Onkoloji Mərkəzə ətraflı müayinə və müalicəyə dəvət olunub.

Genişləndirilmiş dezinfeksiya tədbiri olaraq 17 tam orta məktəbdə, 1341 obyektdə və 306 açıq su hövzəsində dezinfeksiya işləri aparılıb. COVID-19 xəstəliyinə qarşı profilaktika tədbiri olaraq sentyabr ayında 26 min 411 nəfərə I tur və 32 min 186 nəfərə II tur vaksinasiya həyata keçirilib.

Cari ilin sentyabr ayı ərzində Bakı şəhərindən, ümumilikdə, 122 sağlamlıq imkanları məhdud şəxs sanator-kurort müalicəsi üçün qəbul edilib. Onlardan 39-u Darıdağ Arsenli Su Müalicəxanasına, 48-i Duzdağ Fizioterapiya Mərkəzinə, 35-i isə Diaqnostika Müalicə Mərkəzinə göndərilib.

Səhiyyə Nazirliyi ötən ay muxtar respublika üzrə 11 nəfəri Mərdəkan qəsəbəsində yerləşən Müharibə və Əmək Veteranları Pansionatına, 3 nəfəri isə Naxçıvan Muxtar Respublikası Əlillərin Bərpa Mərkəzinə reabilitasiya-müalicəyə göndərib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Plastik Məmulatların Keyfiyyətə Nəzarət və Sınaq Laboratoriyası Qafqazda yaradılmış ilk laboratoriyadır

“Cahan Holdinq” Kommersiya Şirkətlər İttifaqı Naxçıvan Muxtar Respublikasının, eləcə də Azərbaycanın iqtisadi inkişafında mühüm rolu olan şirkətlərdəndir. Şirkətin 2008-ci ildə əsası qoyulan “Cahan İnşaat”



Sənaye Kompleksinin tərkibində fəaliyyət göstərən bir neçə istehsal sahəsi vardır ki, onlardan biri də Plastik Məmulatlar Zavodudur. Burada “Maqna” brendi adı altında beynəlxalq standartlara cavab verən qapı-pəncərə profilləri, polipropilen əsaslı kompozit və sadə içməli su boruları, polietilen suvarma boruları, lambir, saydinq və aksesuarlar, müxtəlif boruların əlavə hissələri istehsal olunur. İstehsal edilən məhsullar həm daxili, həm də xarici bazarda öncül sıralardadır. Fabrikin istehsal xammalı və avadanlıqları Almaniya, Türkiyə və dünyanın digər qabaqcıl ölkələrindən idxal olunur. Müasir qurğular məhsul istehsalının sürət və keyfiyyətini artırır. Belə ki, Plastik Məmulatlar Zavodunun Plastik Məmulatların Keyfiyyətə Nəzarət və Sınaq Laboratoriyası artıq 5 ildir, fəaliyyət göstərir. Laboratoriya Qafqazda ilk plastik məmulatların keyfiyyətinə nəzarət və sınaq laboratoriyasıdır. Fabrikdə istehsal olunan məhsulların keyfiyyətinə nəzarət prosesləri bu laboratoriyada aparılır. Burada hər bir ləvazimat Tayvan istehsalı olan müasir texnologiyalardır. Laboratoriyada ana profillərdə, pəncərə və qapıların emalında istifadə olunan materialların küləyə qarşı davamlılığı, hava keçirməni, su keçirməzliyi, zərbə müqavimətini, daxili təzyiqi, süni hava şərtlərinə dayanıqlılığı, “X-Rite D-65” gün işığı vasitəsilə rəng təyinini müəyyənləşdirən cihazlardan istifadə olunur. Bu avadanlıqlar vasitəsilə zavodda istehsal olunan hər bir məhsul sınaqdan keçirildikdən sonra istehsala buraxılır. Laboratoriyada fabrikdə istehsal edilən hər bir məhsuldan nümunələr saxlanılır və aparılan proseslər yerli, ixtisaslı laborant tərəfindən həyata keçirilir.

Müəssisədə yerli mütəxəssislərin hazırlanmasına da xüsusi diqqət yetirilir. Burada gənc kadrların hərtərəfli inkişafı, təcrübi məşğələlərin keçirilməsi üçün əlverişli şərait yaradılır. Yerli mütəxəssislərin ixtisaslaşdırılması isə ölkə iqtisadiyyatına öz töhfəsini verir. Plastik Məmulatların Keyfiyyətə Nəzarət və Sınaq Laboratoriyası da fəaliyyətə başladığı gündən gənc mütəxəssislərin istifadəsindədir. Burada sınaq proseslərinin uğurla həyata keçirilməsində laborant Vasif Qasımov böyük səy göstərir və həvəslə çalışır. Çünki bu laboratoriya Qafqazda plastik məmulatların keyfiyyətə nəzarət edən ilk laboratoriyadır. Müasir avadanlıqlar vasitəsilə burada məhsulların bütün keyfiyyət göstəriciləri analiz edilir, sınaqdan keçirildikdən sonra istehsala buraxılır. Laboratoriyada 18 sınaq və təyinetmə avadanlığı var. Bu avadanlıqlar vasitəsilə məhsullar üzərində dünya standartlarına uyğun təcrübə aparmaq, istehsal olunan hər bir məhsulu sınaqdan keçirmək mümkündür.

Bu gün müasir avadanlıqlarla təchiz olunan belə bir laboratoriyanın Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərməsi burada istehsal olunan hər bir plastik məmulatın yüksək keyfiyyətə əsaslandığını göstərir.

***“Cahan Holdinq” Kommersiya Şirkətlər İttifaqının mətbuat xidməti***

***Payızın gəlişi ilə bağ-bağçaların məhsullu toplanıb qış tədarükü görülür. Yurdumuzun hansı kəndinə getsək, orada torpağa baş əyən zəhmətkeş insanların öz həyətyanı sahəsindəki bağında – bağçasındakı payız məhsulunu topladığını görərik. Kimi badam, fındıq toplayır, kimi heyva dərir, kimi isə cəviz çırpır. Bu günlərdə yolu bazara düşən hər kəs yaş cəviz alıb dadına baxmağa tələsir. Doğma yurdumuzun bir çox nemətləri kimi cəviz də brendə çevrilib. Elə biz də Naxçıvan cəvizi haqqında oxucularımıza məlumat vermək üçün yolumuzu Babək rayonunun Aşağı və Yuxarı Buzqov kəndlərindən saldıq.***



## Yurdumun bol ruzi payı – cəviz

Kəndə yaxınlaşdıqca yolboyu Tanrının yurdumuza bəxş etdiyi gözəlliklərə tamaşa edirik. Payız fəslinin bolluq və bərəkət dolu bu günlərində bağ-bağatın cəvizini, badamını, heyvasını toplayan insanlar xoşbəxt ömür-gün sürürlər. Rayonun Yuxarı və Aşağı Buzqov kəndlərində seyr etdiyimiz mənzərələr ürəyimizə sevinc gətirir. Tanrının bəxşişi olan yurdumuzun nemətlərinin hər birini yetirib-bitirən, bol bar-bəhər verən torpaqları, ayrı-ayrı rayon, kənd əraziləri vardır. Ordubad limonu, əriyi, zoğalı, Şərur şaftalısı, kartofu, pomidoru, Şahbuz badamı, alması, heyvası, Sədərək üzümü ilə tanınır. Elə Babək rayonunun Aşağı və Yuxarı Buzqov kəndləri də cəvizin məskəni sayılır. Düzdür, Şərurun Havuş, Şahbulaq, Ordubadın Nürgüt, Biləv, Culfanın Ləkətağ, Boyəhməd, Şahbuzun Aşağı və Yuxarı Qışlaq, Qızıl Qışlaq, Kükü, Keçili kəndlərində də cəviz ağacları saysız-hesabsızdır. Lakin Buzqov cəvizi dadtamına, məhsuldarlığına, keyfiyyətinə görə bənzərsizdir. Naxçıvan cəvizi ölkəmizin hər yerində əl-əl axtarıldığına görə bu sahəyə maraq da artıb. Hər qarış torpağı bar-bərəkət dolu diyarımızda şəfa mənbəyi olan bu nemətlərin çoxaldılması məqsədilə meyvəçilik son illər sürətlə inkişaf etdirilir. Ardıcıl şəkildə həyata keçirilən Dövlət proqramlarının icrası minlərlə hektar sahədə meyvə bağlarının salınması ilə nəticələnib. Belə bağlar arasında muxtar respublikamızın



iqlim xüsusiyyətləri nəzərə alınaraq əkilən qərzəkli meyvələrdən olan cəviz də üstünlük təşkil edir. Kənd adamlarının hər il həyətlərində, pay torpaqlarında yaratdıqları cəvizliklərdən əlavə, muxtar respublikamızda son illər iməciliklər yolu ilə də hektarlarla cəviz bağı salınıb. Onu da deyək ki, cəviz təkcə çərəz kimi çox sevilmir, ondan hazırlanan mürəbbə də Naxçıvanın brend məhsulları arasındadır. Elə buna görə də şirniyyat istehsalı müəssisələri cəvizin yaxşı alıcılarıdır. Kənddə həmsöhbət olduğumuz 70 yaşlı Zəhra Hüseynova belə deyir: – Bu kənddə həyətində cəviz ağacı olmayan ev tapa bilməzsən. Hamı cəvizdən yaxşı gəlir götürür. Hər həftənin şənbə və bazar günləri Naxçıvan şəhərində kənd təsərrüfatı məhsullarının satış yarmarkası keçirilir. Neçə illərdir ki, məhsulu yarmarkaya aparır, yaxşı da satırıq. Cəvizin “daş cəviz” adlanan növünün ağacı həm də mebel istehsalında qiymətli və keyfiyyətli material hesab olunur. Yadımdadır, 1980-ci illərin axırları, 1990-cı illərin əvvəlləri idi. Həmin illərdə cəviz ağaclarına müştəri düşən bəzi



gözüaçıqlar kəndə yol açmışdı. Qapı-qapı düşüb cəviz ağaclarını satın alıb-kəsib aparmaq istəyirdilər. Çətin vəziyyətdə olsaq da, heç kim cəviz ağacını kəsib satmadı. Çünki bura qədimdən cəvizin məskəni, cəvizsə bu yerin insanlarının ruzisi, dolanışıq mənbəyi olub. Ruzi mənbəyi olması ilə yanaşı, cəviz ağacına bizim ellərdə müqəddəs ağac kimi baxılır. Bu ağacın fərqliliyi ondadır ki, bu ağac suyu özünə çəkir, onun ətrafında daim nəmlik olur, hətta bulaq da yaranır.

Nənə bizə cəvizin faydalarından, istifadəsindən də danışır. O deyir: – Cəvizi ərik dənəsi böyüklükdə ikən – təzəcə yetişmək istəyəndə hər gün səhər vaxtı 1 ədəd olmaqla, 10 gün udmaq xəstəliklərin müalicəsində əvəzsizdir. Cəviz ləpəsinin damarlardakı artıq yağların təmizlənməsində, ürək-damar xəstəliklərinin müalicəsində, uşaqların zehni inkişafında, sümüklərin gücləndirilməsində böyük təsiri var. Hər gün 40 qram cəviz ləpəsi yeyən ürək-damar xəstəliyi nədir bilməz. Yarpaqları ağız yaralarına, bağırsaq iltihabına, ayaqda göbələk xəstəliyinə məlhəmdir. Bu nemətdən mətbəximizdə də çox istifadə olunur. Hələ yetişməmiş, içi bərkiməmiş (buna el arasında “sümükləşməmiş” də deyirlər) cəvizdən bişirilən mürəbbə süfrələrimizin bəzəyidir. Bu mürəbbə 10 günə başa gəlir və hər kəs bişirə bilməz. Hazırlanması çox zəhmət və bacarıq tələb edən bu mürəbbə evimizə gələn qonaq üçün açdığımız çay süfrəsinin “şahı”dır. Mürəbbə bişirmək üçün qabığı odunlaşmamış sütül cəviz götürülür. Qabığı nazik soyulur, gündə 2-3 dəfə suyunu dəyişmək şərtilə 3 gün suda saxlanılır. Sonra cəviz əhəngli suya qoyulur. Gündə 4-5 dəfə qarışdırılmaq şərtilə 2-3 gün əhəng suyunda saxlanılır. Əhəng suyundan çıxarılmış cəvizləri bir neçə yerindən deşərək yenidən gündə 2-3 dəfə suyunu dəyişmək şərtilə 3 gün təmiz suda saxlayırlar. Beləliklə, emal edilmiş cəvizlər qaynar suda 20-25 dəqiqə pörtlədilir.

Üzərinə şərbət əlavə edilib arada 4-5 saat saxlamaq şərtilə 2-3 dəfəyə bişirilir. Axırda limon turşusu, zövqə görə vanilin, mixək və ya hil əlavə edilir.

Cəvizlə bişirilən çox sayda şirniyyatlarımız var ki, bunların başında Naxçıvanın içli çöçəsi dayanır. Cəviz çırpılandan 10-20 gün sonra (yaş cəviz quruyanda) bütün evlərdə təzə cəvizlə içli çöçə bişirilir. Bu çöçəyə bayram çöçəsi də deyirik. İl uzunu, xüsusilə də ən əziz bayramımız Novruzda çərəz kimi süfrəyə qoymaqla yanaşı, cəvizdən milli şirniyyatlarımız olan şəkərbura və paxlava bişirilməsində də istifadə olunur. Cəvizli nabatın isə dadına dad çatmaz. Cəviz ləpəsindən zirətovda, plovun qarasında da çox istifadə edirik. Nənə onu da deyir ki, saça qoymaq üçün xınanı cəviz yarpaqlarından dəmlənmiş su ilə hazırlasanız daha



gözəl tutar. Cəviz ləpələrinin arasındakı pərdənin dəmləməsi isə bir çox xəstəliklərlə yanaşı, saç tökülməsinin də qarşısını alan dəyərli vasitədir. Cəviz qabıqlarını qaynadıb saçınızı yusanız tökülməsi dayanar. Hələ qədim zamanlardan cəvizdən və onun yarpaqlarından boyaq vasitəsi kimi də istifadə edilib. Bu kəndin sakinləri heyvandarlıqla da məşğul olduqları üçün yun da bu kənddə bol olub. Əli qızıl qadınlarımız yunu cəvizin suyuna salıb, boyayıb, gözəl xalçalar toxuyublar. Cəviz qacağında boyanmış və baxmaqla insanın gözünün doymadığı tündqəhvə rəngli yun iplərlə toxunan xalılar illərlə öz gözəlliyini saxlayır. Nənə onu da deyir ki, bu xalçaları qorumaq üçün arasına cəviz yarpaq qoyub bükərik. Cəvizin yarpağı ona güvə düşməsinə imkan verməz.

*Həm ağacı, həm yarpağı, meyvəsi, hətta meyvəsinin qabığı belə müxtəlif sahələrdə istifadə olunan uzunömürlü cəviz ağacları həm də yurdumuzun tarixinin şahidləridir. Bu elin qədirbilən insanları onların ruzi mənbəyi olan bu ağacları daim qoruyur gələcək nəsillərin də bu əvəzsiz nemətdən yararlanmasına çalışırlar.*

**✍ Telli MƏMMƏDOVA**

## Sumaq tək ədviyyat deyil, həm də təbii dərmandır

***Payızı məhsul fəsli də adlandırırlar. Çünki insanlar ilboyu çəkdikləri zəhmətlərinin bəhrəsini, əsasən, payız aylarında götürürlər. Həqiqətən də, indi diyarımızın hansı kəndinə üz tutsaq, insanların səhərin erkən saatlarından axşama qədər məhsul tədarükü ilə məşğul olduqlarını görərik.***

Payız fəslində yetişən, özünəməxsus görünüşü ilə diqqəti cəlb edən bitkilərdən biri də sumaqdır. Dünyada 250-yə qədər kol və ağac növü məlum olan bu nadir və qiymətli bitki muxtar respublikamızda da geniş yayılıb. Hələ 1727-ci ildə tərtib edilmiş “Naxçıvan sancağının müfəssəl dəftəri” ndə oxuyuruq ki, vaxtilə əksər yaşayış məntəqələrindən sumaq vergisi alınıb. Bu da onu göstərir ki, Naxçıvanda sumaq təbii halda yayılmaqla yanaşı, həm də əkilib-becərilib. Bu gün də diyarımızın bir sıra yaşayış məntəqələrində yol kənarlarında belə, sumaq ağaclarına rast gəlmək mümkündür. Hətta bu bitki o qədər geniş



yayılıb ki, onun satışını da həyata keçirənlər vardır. Belə ki, sumaq Ordubad rayonunun dağlıq ərazilərində – Biləv, Tivi, Unus, Üstüpü və digər kəndlərində geniş yayılıb. Üstüpü kənd sakini Əkbər Kərimov da uzun illərdir, təbii halda yayılan bu bitkinin meyvələrini toplayaraq gəlir əldə edən təsərrüfatçılarımızdan biridir. Onunla söhbət zamanı bildirdi ki, sumaq ağacları hamar torpaqlarda bar gətirmir, daha çox daşlı, əhəngli yamaclarda, qayalarda və seyrək meşələrdə, çay sahillərində bol məhsul verir. Ağaclar iyun-iyul aylarında çiçəkləyir, xırda yaşıltəhər göy rəngli tutqun çiçəkləri bir budaq üzərində toplanır. Sumaq ağacının meyvələri budaqların uc hissəsindəki zoğlarda salxım şəklində olur. Meyvələri nəzəri cəlb edən tünd-qırmızı və girdə formadadır. Meyvələr tam qırmızı rəng



aldıqdan sonra, xüsusilə də sentyabr-oktyabr aylarında toplanılır. Sumağın xüsusi yığılma və emal qaydaları vardır. Sumağı əlcəklə yığırıq, əks halda, bitkinin turşluğu əl və qol nahiyəsində səpgilər, yaralar əmələ gətirə bilər. Meyvələri topladıqdan sonra günəş yaxşı düşən yerdə bir neçə gün müddətində qurudururuq, sonra meyvələri zoğdan ayırırıq. Daha sonra həmin xammalı dibəkdə döyür, ya da bir torba içərisinə doldurularaq ağır bir vasitə ilə toxumlarından ayrılanadək əzirik. Əldə edilən məhsul ələkdən keçirildikdən sonra istifadə üçün hazır olur.

Müsahibim qeyd edir ki, sumaqdan həm tibbi məqsədlə, həm də ədviyyat kimi istifadə edirik. Sumaq Azərbaycan mətbəxində xüsusi yer tutur. Turşluğu və büzüşdürücülüyü ilə ət və balıq yeməklərinə, salatlara əlavə dad qatır.

Mütəxəssislərin fikrincə, sumaq şəkər, üzvi turşular, C vitamini ilə zəngindir. Onun tərkibində şərab turşusu olduğundan dadı çox turş olur. Texniki və tibbi məqsədlər üçün bitkinin yarpaqları və meyvələrindən istifadə edilir. Sumağı həm də xalq təbabətində çay kimi dəmləyib ishala və dizenteriyaya qarşı işlədirlər. Elmi təbabətdə isə onun duru ekstraktını hipertoniya, eləcə də şəkər xəstələri qəbul edirlər. Sumaq həzmi asanlaşdırır, iştahanı artırır, boğaz xəstəliklərinə qarşı faydalıdır, temperaturu aşağı salır, susuzluğu aradan qaldırır, diş xəstəliklərinə və zəhərlənmələrə qarşı təsirlidir. Arıqlamaq istəyənlər bu ədviyyatı qidalarına əlavə etsələr, faydasını görərlər. Tibb və boya sənayesi sahələrində də istifadə edilən sumaq, həmçinin doşab, çay və digər içkilərin istehsalında istifadə olunur.

Qeyd edək ki, nəsli kəsilmək təhlükəsindən xilas edilmək məqsədilə sumaq bitkisi “Qırmızı kitab”a salınaraq mühafizə olunur. Süfrələrimizi bəzəyən, yeməklərimizə dad və rəng qatan sumaq tək ədviyyat deyil, həm də təbii dərmandır. Ona görə də gəlin bu nadir və qiymətli bitkini qoruyaq və ondan səmərəli istifadə edək.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Tarix yazan adınızla qürur duyuruq



Bir zəhmətkeş ana tanıyıram. O ana ki övladını necə əzab-əziyyətlərlə böyüdüb, boya-başa çatdırıb. Atasız övlad yükünü təkbaşına çəkib... II Qarabağ müharibəsi başlayanda Tünzalə ana təlaş içərisində idi… Axı min bir əziyyətlə böyütdüyü, gözünün ağı-qarası olan oğlu düşmənlə üz-üzə dayanmışdı... Torpaqlarımızın düşməndən azad edilməsində böyük qəhrəmanlıq göstərən oğullarımız sırasında Tünzalə ananın oğlu İlkin də var idi.

Anayla etdiyim söhbətdən məlum oldu ki, bu mərd, cəsur oğlanın ən böyük arzusu hərbçi olmaq imiş... Hələ orta məktəbdə oxuyarkən müəllim sərbəst mövzuda inşa yazmağı tapşırır, İlkin inşaya bu kəlmələrlə başlayır: “Ən böyük arzum hərbçi olub, o şərəfli formanı geyinib, düşmən əsarətində olan yurd yerlərimizi azad etməkdir”. Böyüdü, arzusunu gerçəkləşdirmək üçün addım-addım irəlilədi. Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseydə təhsilini başa vurduqdan sonra Azərbaycan Ali Hərbi Məktəbinə daxil oldu. Məktəbi uğurla bitirib Beyləqanda yerləşən “N” hərbi hissəsində leytenant kimi xidmətə başladı.

Bu günlərdə eloğlumuzla telefon əlaqəsi saxladım, o müharibədə yaşadığı anları elə maraqla danışırdı ki, baş verənlər bir kino lenti kimi gözlərim önündə canlanırdı. İlkinin döyüş yolunu vərəqləyib sizlərlə bölüşürəm:

Döyüş başlayır... Atəş səsindən qulaq tutulur. İlkin hər bir əməliyyata böyük ustalıqla yanaşaraq, üzərinə yağan mərmi yağışından qorunmağı bacarır. Bu gənc naxçıvanlının bir məqsədi var: ölmək yox, öldürmək. Döyüşlər zamanı İlkin və onun tabeliyində olan əsgərlər düşmənin çoxlu qənimətini ələ keçirir. İlkin deyir ki, döyüş zamanı əsgər, zabit bilinmirdi. Hər birimiz bir yumruq olub, düşmən üzərinə irəliləyir, 30 ildir, içimizdə yanan alovu söndürürdük. Döyüşdə belə bir “qanun” var: döyüş yoldaşına özün qədər güvənməlisən, o vurulsa, sən də vurulmusan, o yaşayırsa, sən də sağsan deməkdir. Düşmənin əsas hədəfi zabitlər idi. Məhz buna görə də döyüş başlayan bir gündən daşıdığım zabit formasını çıxarıb kənara qoymuşdum. Çünki məndən önəmli mənim şəxsi heyətim idi. Onlar komandirlərinin gözünün içinə baxır, nə komanda verəcəyini böyük ümidlə gözləyirdilər.

“Döyüşlərin ən çətin məqamı doğma Şuşamıza ayaq basdığımız zaman oldu”, – deyir İlkin. Düşmənin hədəfini yerindəcə məhv edir, yaralı olan yoldaşlarımıza ilkin tibbi yardım göstərirdik. Düşmənin ağlına belə gəlməzdi ki, insan ayağı dəyməmiş çətin yollarla Şuşa torpağına gələr. Bizim o torpaqlara ayaq basdığımızı görən mənfur düşmən hər vasitəyə əl atsa da, şanlı ordumuz tərəfindən yerindəcə məhv edildi. Hər birimizin bir məqsədi vardı: bütün çətinlikləri aşmaq, düşməni məhv etmək. Axı yolumuzu gözləyən Vətən vardı... Vətənimizin nisgilini sona yetirmək üçün canımız bahasına hər şeydən keçməyə hazır idik.

Döyüş vaxtı ağır yaralanmışdım. Sonra nə olub, necə olub, xatırlamıram. Sağ olsun yoldaşlarım, məni ölümün pəncəsindən xilas edib xəstəxanaya çatdırıblar həmin zaman.

İlkin həkimlərin təkidinə baxmayaraq, sağlamlığına tam qovuşmamış yenidən savaşa atılaraq, canı-qanı bahasına düşmənə zərbələr vurmaqda davam edir. İlkinlə söhbətimiz “Vətən sağ olsun!”la başlayıb, “Canımız Vətənə qurban olsun!”la bitdi. Bu cür oğullar yetirən Naxçıvan torpağı ilə qürur duydum.

**Nuray ƏSGƏROVA**

## Məşğələ keçirilib



*Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayının bazasında xüsusi təyinatlı və avtomobil nəqliyyatı vasitələrinin payız-qış mövsümü istismarı şəraitinə keçidi ilə əlaqədar nümunəvi məşğələ təşkil edilib.*

Məşğələnin məqsədi texnikaların, avadanlıqların və cihazların sıradan çıxmasının, baş verə biləcək nasazlıqların və qəzaların aradan qaldırılması üzrə tədbirlərin yerinə yetirilməsini təmin etməkdən, texnikalara, aqreqatlara və mexanizmlərə TX-1 və TX-2 həcmində qulluğun göstərilməsini, tələb olunan sənədlərin hazırlanması və işlənilməsi qaydalarını şəxsi heyətə öyrətməkdən ibarət olub.

2 təlim yerindən, 18 tədris nöqtəsindən ibarət məşğələnin nəzəri hissəsini Naxçıvan Muxtar Respublikası fövqəladə hallar nazirinin müavini, general-mayor Hikmət Kərimov açaraq xüsusi təyinatlı və avtomobil nəqliyyatı vasitələrinin payız-qış mövsümü istismarı şəraitinə keçidi ilə əlaqədar imzalanmış əmrin və təlimnamələrin tələblərini şəxsi heyətə çatdırıb.

Birinci təlim yerində texniki park sənədlərinin işlənilməsi qaydaları, parklarda daxili qayda-qanunun saxlanılması, mövsümi xidmət zamanı ideoloji işin və tibbi təminatın təşkili, avtomobil texnikalarına mövsümi xidmət zamanı istifadə olunan yanacaq-sürtkü materialları, mühəndis avadanlıqlarına, minaaxtaranlara, xilasedici qayıqlara və dalğıc avadanlıqlarına mövsümi xidmətin göstərilməsi qaydaları məşğələ rəhbərləri tərəfindən izah olunub.

İkinci təlim yerində qəza-xilasetmə, yük-sərnişin və əməliyyat-minik avtomobillərinə, motosikletlərə, akkumulyator batareyalarına texniki xidmətin göstərilməsi izah olunub, alpinist avadanlıqlarına və digər xilasetmə vasitələrinə mövsümi xidmətin aparılması qaydaları barədə məlumatlar diqqətə çatdırılıb.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Ekoloji maarifləndirmə tədbirləri davam etdirilir

***Naxçıvan Muxtar Respublikasında dayanıqlı ərzaq, enerji təminatının yaradılması, əhalinin rifahının yüksəldilməsi, sağlam ekoloji mühitdə yaşamasının təmin edilməsi istiqamətində uğurlu siyasət həyata keçirilir, sosial-iqtisadi islahatların əhatə dairəsi genişləndirilir.***



Sentyabr ayında ətraf mühitin mühafizəsi, qanunsuz ov edilməsi, meşə fondu torpaqlarından qanunsuz istifadə, ətraf mühitə təsir hallarının qiymətləndirilməsi məqsədilə 16 yoxlama-reyd keçirilmişdir. Bu sahədə 4 inzibati xəta qeydə alınmış və qanunauyğun tədbirlər görülmüşdür. Ötən ay Şərur Rayon İcra Hakimiyyətində və Şahbuz rayonunun Aşağı Qışlaq kəndi ərazisində ekoloji-hüquqi maarifləndirici tədbirlər keçirilmiş, bu tədbirlər kütləvi informasiya vasitələrində işıqlandırılmışdır. Keçirilən maarifləndirmə tədbirlərində ətraf mühitin mühafizəsi, yaşıllıqların artırılması, çay vadilərinin, suların qorunması və ailə təsərrüfatlarının inkişaf etdirilməsində yabanı meyvə, dərman bitkilərindən səmərəli istifadə yolları haqqında müzakirələr aparılmışdır.

Ay ərzində ekoloji monitorinqlər də davam etdirilmişdir. Bu məqsədlə Şərur, Sədərək, Ordubad, Babək, Şahbuz, Kəngərli və Culfa rayonlarının 26-ya qədər yaşayış məntəqəsi ərazisində monitorinqlər aparılmış, su mühiti, məişət, tibbi və bərk tullantıların idarə olunması və mərkəzi avtomobil yollarının kənarlarında yerləşən yaşıllıq zolaqlarındakı mövcud vəziyyət öyrənilmişdir. Monitorinqlər zamanı bir sıra çatışmazlıqlar da qeydə alınmışdır. Mövcud çatışmazlıqlar aidiyyəti üzrə bildirilmişdir.

Sədərək Rayon Su Monitorinq Laboratoriyasında hesabat ayı ərzində Araz çayının muxtar respublika ərazisinə daxil olan hissəsindən və Sədərək rayonu ərazisindən keçən “Şir arxı”ndan, Arpaçayın muxtar respublika ərazisinə daxil olan hissəsindən su nümunələri götürülərək analiz aparılmışdır. Nəticədə, sularda çirklənmə hallarının yol verilə bilən qatılıq həddini keçməsi qeydə alınmamışdır.

Muxtar respublika ərazisində ekoloji tarazlığın qorunması sahəsində mühüm amil olan yaşıllıqların, meşələrin qorunması və artırılması diqqətdə saxlanılmışdır. Hesabat ayında Naxçıvan Sement Zavodunun ətrafında salınmış püstə bağında sahənin otu biçilmiş, tinglərə aqrotexniki qaydada qulluq göstərilmiş, 231 püstə fidanı ilə bərpa aparılmış, həmçinin barverən püstə ağaclarından 4 kiloqramdan artıq püstə toxumu tədarük olunmuşdur. İlin əvvəlindən təsdiq olunmuş toxum bölgüsünə uyğun olaraq 256 kiloqram müxtəlif meyvə və meşə cinslərinin toxumları tədarük edilmişdir. Toxum tədarükü mövsümə uyğun olaraq davam etdirilir.

Ötən illərdə salınmış meyvə bağlarına aqrotexniki qaydada qulluq göstərilmiş, həmçinin Məzrə, Şıxmahmud, Badaşqan, Yeniyol, Kərimbəyli, Qarabulaq Dövlət Meşə Fondu ərazilərində qurumuş ağaclar doğranaraq Naxçıvan şəhərində yerləşən hərbi hissələrə və “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasına verilmişdir.

Qış mövsümündə fauna ehtiyatlarının daşduza olan tələbatının ödənilməsi məqsədilə daşduz ehtiyatı yaradılmış, meyvə-tərəvəz qalıqları isə mövsümə uyğun olaraq tədarük ediləcəkdir. 2021-ci ilin yaylaq mövsümü dövründə Ordubad rayonunun Tilləк yurdu, Boğaz yurd, Gen dərə yaylaqlarında məskunlaşmış fermerlərlə fərdi maarifləndirici görüşlər keçirilmiş, söhbətlər aparılmışdır.

Gənclərlə işin səmərəli təşkili məqsədilə Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu ilə birgə hazırlanmış tədbirlər planına uyğun olaraq “Ekoloji könüllülər” layihəsi çərçivəsində 20-dən çox ekologiya könüllüsünün iştirakı ilə Heydər Əliyev Su Anbarının ətrafında Ümumdünya çaylar və dənizlər gününə həsr olunmuş təmizlik aksiyası keçirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

## Gənclərin asudə vaxtı səmərəli təşkil olunur

***Muxtar respublikanın turizm imkanlarının gənclər arasında tanıdılması və təbliği, onların vətənpərvər ruhda formalaşdırılması, intellektual bilik və dünyagörüşünün artırılması, asudə vaxtlarının səmərəli təşkili məqsədilə sentyabr ayında da bir sıra tədbirlər həyata keçirilmişdir.***



Ötən ay muxtar respublika 100 fəal gəncin iştirakı ilə keçirilən “Marş irəli” adlı hərbi simulyasiyalı layihənin 4-cü mövsümünə ev sahibliyi etmişdir. Layihəyə uyğun olaraq gənc nəslin hərb sənətinə marağını artıracaq tədbirlər, hərbi texnikalarla tanışlıq, tariximizin və milli-mənəvi dəyərlərimizin təbliği məqsədilə müxtəlif ekskursiyalar həyata keçirilmiş, müzakirə və təqdimatlar olmuşdur.

Hesabat dövründə “Oxunması zəruri olan kitabların Siyahısı”na uyğun olaraq gənclər arasında təşkil olunan kitab müzakirələrinin davamı kimi Hüseyn Cavidin “Azər” poeması və Gi de Mopassanın “Gombul” hekayəsinin müqayisəsi əsasında tədbir keçirilmiş, muxtar respublikanın turizm imkanlarının təbliğinə xidmət edən “Doğma yurdum” adlı fotomüsabiqə, “Naxçıvanı tanıyaq!” devizi ilə Şərur rayonundakı muzeylərə ekskursiya, Şahbuz rayon gəncləri üçün “Ünsiyyətin həyatımızdakı rolu” adlı təlim, “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının Culfa rayonunda yerləşən sərhəd zastavasında isə əsgərlər üçün “Vətəni tanı” və “Nə? Harada? Nə zaman?” intellektual oyunları təşkil olunmuşdur.

Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinin yad olunması məqsədilə Naxçıvan şəhəri və bölgələrdə 27 sentyabr – Anım Günü ilə bağlı gənclərin yürüşləri təşkil edilmiş, şəhid ailələri ilə görüşlər keçirilmiş, qəhrəmanlarımızın məzarları ziyarət olunmuşdur. Azərbaycanın tarixində müstəsna xidmətləri olan şəxslərin, ərazi bütövlüyümüz uğrunda şücaət göstərən döyüşçülərin, o cümlədən Milli qəhrəmanların gənclər arasında tanıdılması məqsədilə könüllü gənclər tərəfindən “Qəhrəmanlar unudulmur!” adlı videoçarxlar hazırlanmış və sosial şəbəkələrdə yerləşdirilmişdir.

Ötən ay bədən tərbiyəsi və idmanın inkişafı, bu sahədə kütləviliyin təmin edilməsi, gənc nəslin sağlamlığının qorunması və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası istiqamətində də tədbirlər həyata keçirilmişdir. Avropa Futbol Assosiasiyaları İttifaqına üzv olan dövlətlərdə uşaq futbolu ilə bağlı tətbiq olunan “Grassroots” proqramına əsasən Uzunoba Təlim-Məşq İdman Kompleksində 100-dək məktəblinin iştirakı ilə əyləncəli futbol festivalı keçirilmiş, AFFA nümayəndələri arasında regionda futbolun inkişafı ilə bağlı əsas istiqamətlər və əməkdaşlıq əlaqələri müzakirə edilmişdir. Paralimpiyaçılar arasında üzgüçülük, stend atıcılığı və məktəbli qızlar arasında voleybol üzrə muxtar respublika birincilikləri reallaşmışdır.

Sentyabr ayında Naxçıvan Kikboksinq Federasiyasının idmançıları kikboksinq üzrə Bakı şəhər açıq birinciliyi və uşu üzrə klublararası respublika turnirindən, ümumilikdə, 5 qızıl, 4 gümüş və 3 bürünc medal qazanmışlar. Naxçıvan Karate-do Federasiyasının yetirməsi Rəşid Süleymanov Serbiyada keçirilən Dünya məktəblilərinin idman oyunlarında qızıl medal əldə etmişdir. Naxçıvan Şahmat Federasiyasının 7 idmançısı Türkiyədə keçirilən beynəlxalq turnirin mükafatçıları sırasına düşmüş, onlardan Nəsrin Babayeva və Nazlı Hümbətova öz qruplarını lider kimi bitirmişlər. İdmançılarımızdan Əli Əsgərov pauerliftinq, deadlift və benç press üzrə kişilər və qadınlar arasında açıq Azərbaycan çempionatında deadlift üzrə 1-ci yerin qalibi olmaqla, Rusiyada keçiriləcək dünya çempionatında ölkəmizi təmsil etmək hüququ əldə etmiş, digər təmsilçimiz Turan Qədimli isə benç pressdə ikinci olmuşdur.

Ötən ay Atıcılıq, Hava və Ekstremal İdman Növləri, Paralimpiya və Kikboksinq federasiyalarının təmsilçiləri müvafiq olaraq Duz Muzeyi, Milli Dəyərlər Muzeyi, Naxçıvan Dövlət Rəsm Qalereyası və Qarabağlar Türbə Kompleksini ziyarət etmişlər. Ağbulaq İstirahət Mərkəzində idmançıların asudə vaxtının səmərəli keçirilməsi məqsədilə təşkil olunan ənənəvi “Yay məktəbi”ndə 12 idman federasiyasından, ümumilikdə, 150 nəfərin iştirakı təmin edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Şərur rayonunun Məmmədsabir kəndində yaşamış Əhmədova Raziyə Tağı qızının adına verilmiş JN-247A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Qasımova Azadə Məmməd qızının adına olan JN-199A inventar nömrəli, 10212018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 835